UOT 338. (479.24)

# Azərbaycanın davamlı iqtisadi inkişafında iqtisadi təhlükəsizliyin təmin olunması məsələləri



**Hümbətova Suğra İnqilab qızı***
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı

## Xülasə

*Tədqiqatın məqsədi* - ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və daxili bazarının qorunması məqsədilə Azərbaycan iqtisadiyyatının sabit artım qabiliyyəti üzrə təhlükəsizlik indikatorlarının dinamikasının və sosial-iqtisadi inkişafı üzrə faktiki indikatorlarının iqtisadi təhlükəsizliyin astana kəmiyyətləri ilə müqayisəli tədqiqi.

*Tədqiqatın metodologiyası* - statistik qruplaşdırma, sistemli yanaşma, müqayisəli təhlil.

*Tədqiqatın nəticələri* - davamlı iqtisadi inkişafında iqtisadi təhlükəsizliyinin təmin edilməsi, daxili bazarının qorunması mexanizminin səmərəliliyinin artırılması və təkmillləşdirilməsi məqsədilə elmi cəhətdən əsaslandırılmış makroiqtisadi sabitləşmə, maliyyə və qiymət, əhalinin həyat səviyyəsi və səhiyyə, sənaye və tikinti, təhsil və elm, xarici iqtisadi fəaliyyət, qeyri-resurs sahələri əhatə edən inkiaf tədbirlərinin sürətləndirilməsi.

*Tədqiqatın məhdudiyyətləri* - iqtisadi təhlükəsizliyə olan təhdidlərin araşdırılması, iqtisadi təhlükəsizlik meyarlarının sahəsində mövcud problemlərin araşdırılması baxımından daha geniş tədqiqatın aparılması zəruriliyi.

*Tədqiqatın praktiki əhəmiyyəti* - iqtisadi təhlükəsizliyinin təmin edilməsi, daxili bazarının qorunması mexanizminin səmərəliliyinin yüksəldilməsi və təkmilləşdirilməsi.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - iqtisadi təhlükəsizliyin təmin edilməsi və daxili bazarın qorunması mexanizminin səmərəliliyinin artırılması və təkmilləşdirilməsi baxımından Azərbaycan iqtisadiyyatının sabit artım qabiliyyəti üzrə təh-

* Bakı şəhəri. AZ1001. İstiqlaliyyət küçəsi, 6.
s.qunbatova2012@yandex.ru.



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

lükəsizlik indikatorlarının dinamikasının və sosial-iqtisadi inkişaf üzrə faktiki indikatorların iqtisadi təhlükəsizliyin astana kəmiyyətləri ilə elmi cəhətdən əsaslandırılmış müqayisəli tədqiqin aparılması.

**Açar sözlər:** *Azərbaycan iqtisadiyyatı, iqtisadi təhlükəsizlik, təhlükəsizlik meyarları, təhlükəsizlik sərhədləri, astana kəmiyyətləri.*

## 1. Giriş

Ölkənin davamlı iqtisadi inkişafını, onun iqtisadi təhlükəsizliyini təmin etmək dövlətin qarşısında duran vacib məsələdir. Bu baxımdan iqtisadi təhlükəsizliyə olan təhdidlərin araşdırılması iqtisadçı alimlərin daim diqqət mərkəzindədir.

Tədqiqatın aktuallığı onunla müəyyən edilir ki, Azərbaycanın yerli əmtəə istehsalçılarının dövlət tərəfindən dəstəklənməsi sisteminin təkmilləşdirilməsi bazar mexanizmlərinin formalaşması şəraitində baş verir. Bu, prosesin dinamikasını izləməyə, əsas meyil və problemləri aşkara çıxarmağa, seçilmiş istiqamətlər üzrə tövsiyələr işləyib hazırlamağa, iqtisadi təhlükəsizliyə olan təhdidlər qarşısının alınmasında və iqtisadi təhlükəsizliyin təmin olunmasının müasir tələblərə cavab verən forma və metodlarını dəyərləndirməklə optimal mexanizmini təklif etməyə imkan verir.

## 2. İqtisadi təhlükəsizliyə olan təhdidlər və təhlükəsizlik meyarları

İqtisadi təhlükəsizliyə olan təhdidlər dedikdə dövlətin daxili və xarici amillərin təsiri nəticəsində istehsala və dövriyyəyə nəzarəti və onlara olan əsas iqtisadi və hüquqi vasitələri itirməsi başa düşülür.

Bəzi müəlliflər iqtisadi təhlükəsizlik təhdidlərini "... müəyyən zaman intervalında ölkənin iqtisadi potensialının enməsi dərəcəsini ifadə edən inteqral göstərici" kimi [1, s. 119], digərləri "dövlətin milli iqtisadiyyatına və ya beynəlxalq iqtisadi sistemin dayanıqlı fəaliyyətinə mənfi təsir göstərən amil və şərtlərin məcmusu" kimi [2, s. 431] göstərirlər.

Rusiya iqtisadçısı S.A.Afonsevin (*1973*) fikrincə, "...iqtisadi təhlükəsizliyin təhdidləri milli və beynəlxalq iqtisadi sistemi destabilləşdirən iqtisadi və siyasi mənşəli endogen və ekzogen şokları təmsil edirlər" [3, s. 35].

İqtisadi təhlükəsizlik təhdidlərinin təhlili kəsişən, lakin üst-üstə düşməyən təhdidlər qrupunu müəyyən edir: [1, s. 35].

- iqtisadi xarakter daşıyan milli təhlükəsizlik təhdidləri;
- iqtisadi sistemin stabilliyinə təsir göstərən təhdidlər.

İqtisadi sistemdə baş verən hər bir dəyişikliyi təhdid adlandırmaq olmaz. Dəyişikliklərin çox hissəsi gündəlik iqtisadi fəaliyyətlə bağlıdır və onun xərclərini

əks etdirir. Məsələn, maliyyə şoklarının iqtisadi sistemə neqativ təsiri; yaxud ekologiyaya əhəmiyyətli xərclərin artması ilə iqtisadi sabitliyə müəyyən maneələr milli iqtisadiyyatın təhlükəsizliyinə təhdid ola bilməz. Digər tərəfdən milli təhlükəsizliyə olan təhdidlər də iqtisadi sistemə habelə iqtisadi təhlükəsizliyə olan təhdidlər kimi çıxış edə bilməz. Məsələn: müdafiə xərclərinin azalması iqtisadi təhlükəsizliyə heç bir iqtisadi effektlik baxımından təsir etmir, lakin milli mənafelər üçün "fəlakət"dir. Deməli iqtisadi təhlükəsizlik probleminə sırf iqtisadi sferadan və iqtisadi sahənin digər sahələrlə qarşılıqlı əlaqəsi baxımından yanaşmaq lazımdır (*hərbi-iqtisadi sfera, iqtisadiyyatla ekologiyanın qarşılıqlı əlaqəsi, ictimai təhlükəsizliyin təmin olunmasının iqtisadi aspektləri*).

Təhdidlərin səviyyəsini qiymətləndirmək üçün iqtisadi təhlükəsizlik meyarları əsas götürülür.

İqtisadi təhlükəsizlik meyarı iqtisadi təhlükəsizliyin mahiyyətini əks etdirən əsas proseslər nöqteyi-nəzərindən iqtisadiyyatın vəziyyətinin qiymətləndirilməsini təmsil edir. Öz növbəsində iqtisadi təhlükəsizlik meyarı iqtisadi təhlükəsizlik indikatorları sistemindən səciyyələndirilir. İqtisadiyyatın vəziyyətini mürəkkəb sistem kimi əks etdirən yüzlərlə indikator vardır. Ölkənin iqtisadi təhlükəsizliyini xarakterizə edən indikatorlar təhdidlərin yaranma müxtəlifliyinə və miqyasına görə olduqca əhəmiyyətlidir. İndikatorlar özündə ölkənin iqtisadi sistemini, onun dayanıqlığını və artım potensialını xarakterizə edən vacib parametrləri əks etdirir. Təhlükə törədən amillərin dəqiq identifikasiyası, onları müəyyən edən alətlərin düzgün seçimi iqtisadi təhlükəsizliyin vəziyyətini və lazımi zəruri addımların atılması imkanı yaradır.

Makro və mezosəviyyədə iqtisadi təhlükəsizlik təhdidlərini təhlil edən və proqnozlaşdıran indikatorlardan iqtisadiyyatın bütün sektorlarında ən vacib sahələri əks etdirənləri istifadə etmək məqsədəuyğundur. Rus iqtisadçısı professor V.K.Sençaqov (*1940*) 19 belə indikatordan istifadəni təklif edir [2, 11]. Digər bir rus iqtisadçısı professor S.Y.Qlazev (1961) ölkənin iqtisadi təhlükəsizliyini dəqiq xarakterizə edən 22 indikatoru təklif edir [5, 11]. Başqa bir rus iqtisadçısı A.N.İlliarionov (*1961*) isə "...ölkənin bir çox iqtisadi və sosial xarakterini nəzərəçarpan dərəcədə əvvəlcədən müəyyən edən, iqtisadi inkişaf səviyyəsini göstərən adambaşına düşən ümumi daxili məhsuldur" fikrini irəli sürür [4, s. 49]. Onun fikrincə iqtisadi təhlükəsizlik meyarları adambaşına düşən iqtisadi artım tempini təmin edən amillərlə göstərilə bilər. Bu konsepsiyada aparıcı amil dövlətin iqtisadi siyasəti və onun istiqamətləridir. A.İllarionova görə, dövlət fəaliyyətinin nəticə hesabatı (*dövlətin sahibkarlıq miqyası, dövlət xərclərinin hesablanması, büdcə kəsiri, dövlət borcu, pul kütləsinin orta illik artım tempi, valyuta məzənnəsinin dinamikası, xarici ticarətdə vergilər və s.*) elə dövlətin iqtisadi təhlükəsizlik indikatorlarıdır.

İqtisadi təhlükəsizlik meyarları iqtisadi təhlükəsizliyin mahiyyətini əks etdirən vacib proseslərinin nöqteyi-nəzərindən iqtisadiyyatın vəziyyətini ifadə edir. Bunların vacibliyinə aşağıdakı meyarlar aiddir:

- təkrar istehsal prosesinin vəziyyəti, onun texnoloji yetkinlik dərəcəsi;
- maliyyə-kredit sisteminin vəziyyəti və onun resurs potensialından istifadənin effektivliyinə təsiri;
- kapital və əməyin fəaliyyətinin effektivliyi və onun dünya meyillərinə uyğunluğu (*məhsuldarlıq, fond verimi, rəqabətqabiliyyətliyi və s.*);
- elmin vəziyyəti və onun istehsala və cəmiyyətin həyat fəaliyyətinin digər sferalarına inteqrasiyası dərəcəsi, elmin cəmiyyətin birbaşa məhsuldar qüvvəsinə çevrilməsi;
- resurs potensialının, xüsusilə istehsal vasitələrinin texnoloji və yaş strukturunun vəziyyəti, kapital qoyuluşu və innovasiya siyasətinin effektivliyi;
- iqtisadi mexanizmin məhsuldar qüvvələrin inkişaf səviyyəsinə və keyfiyyət vəziyyətinə uyğunluğu;
- cəmiyyət həyatının və hər bir şəxsin şəxsiyyətinin hərtərəfli inkişafı.

İqtisadi təhlükəsizliyin vəziyyəti iqtisadi göstəricilər-indikatorlar vasitəsi ilə konkretləşdirilir.

İqtisadi göstərici miqdarla ifadə edilən iqtisadi hadisənin istənilən mülkiyyətinin xüsusiyyətini təmsil edir və ya sosial-iqtisadi hadisənin, prosesin yüksək keyfiyyətli miqdar xüsusiyyətləridir. İndikator istənilən cari iqtisadi hadisənin və ya prosesin xüsusiyyətləri üçün istifadə edilə bilən göstəricilərdir.

## 3.Təhlükəsizlik sərhədlərinin müəyyən edilməsi və astana kəmiyyətləri

İqtisadi təhlükəsizlik probleminin həllində təhlükəsiz inkişaf sərhədlərinin müəyyən edilməsi prinsipial məsələ kimi ön plandadır. Bununla əlaqədar olaraq monitorinq prinsipində nəzarətin gedişində indikatorların xarakterinin keyfiyyətli təhlili və proqnozlaşdırılması müəyyənedici rol oynayır. Hər bir təhlükəsizlik indikatorunu 3 sahəyə bölmək olar: təhlükəsizlik zonası, təhdid zonası, yolverilməzlik zonası.

Təhlükəsizlik zonası davamlı inkişaf sahəsini təmsil edir, bu sistemin arzuolunan sahəsidir.

Təhdid zonası və ya böhranöncəsi vəziyyət. Bu sistemin davamlı inkişafına mənfi təsir göstərən böhranın yaxınlaşmasını ifadə edən amillər yığımı ilə səciyyələnir.

Yolverilməzlik və ya böhran zona sistemin vəziyyətinin nəzərəçarpacaq dərəcədə pisləşməsini ifadə edir və fəlakətli hal kimi xarakterizə olunur.

Bu modeldə əsas astana kəmiyyətinin müəyyən edilməsi faktıdır.

Astana kəmiyyəti dedikdə sistemin o vəziyyəti başa düşülür ki, artıq sistem öz dayanıqlığını itirir və böhran zonasına daxil olur.

Sadalanan zonaların sərhəddini təyin etmək kifayət qədər çətindir, bir sıra vasitələrin tətbiqini (*iqtisadi-riyazi modelləşdirmə, ekspert qiymətləndirmə metodu, presedentlərin təhlili və s.*) tələb edir.

Dövlətin iqtisadi təhlükəsizliyini təyin edən konkret böhran parametrlər yığımı vardır ki, bunlarda baş verən hər hansı bir dəyişiklik nəticədə dövlətin müstəqilliyinin itirilməsinə gətirib çıxarır.

Gördüyümüz kimi, iqtisadi təhlükəsizlik indikatorlarının astana kəmiyyəti vacib amildir. İqtisadiyyatın inkişafında yalnız böhran nöqtələri əks etdirən indikatorlar əsaslandırılır. Məhz bu indikatorlar iqtisadi təhlükəsizliyin astana kəmiyyəti kimi çıxış edirlər.

İqtisadi təhlükəsizlik indikatorlarının astana kəmiyyəti - iqtisadiyyatın müxtəlif sahələrində təhlükəsiz və təhlükəli hədd arasında sərhəddi müəyyən edən hesabat xarakterli təhlükəsizlik alətidir.

Astana kəmiyyəti - istehsalın ayrı-ayrı elementlərinin normal inkişafına olan maneələrə əhəmiyyət verilməməsi nəticəsində iqtisadi təhlükəsizlik sahəsində neqativ, dağıdıcı tendensiyaların formalaşmasına gətirib çıxaran hədd göstəriciləridir.

Bu baxımdan iqtisadi sistemin vəziyyəti haqqında bunları demək olar:

- ❖ iqtisadi təhlükəsizliyin bütün indikatorları faktiki olaraq yolverilən həddə yerləşirlər, sistemin iqtisadi təhlükəsizliyinin nailiyyətlərini göstərir.
- ❖ iqtisadi təhlükəsizlik indikatorunun hər hansı birinin özünün astana həddinə çatması sistemin iqtisadi təhlükəsizliyinə təhdidlərin artmasını göstərir.
- ❖ iqtisadi təhlükəsizlik indikatorunun heç olmasa birinin özünün astana həddini aşması yolverilən səviyyənin təhlükəsizlik indikatorunun bu indikator üzrə pozulması və real zərər deməkdir.
- ❖ astana kəmiyyətlərinin tamamilə həddi aşması sistemin yolverilən həddinin pozulması, sistemin böhran vəziyyəti deməkdir.

İqtisadi təhlükəsizliyin ən yüksək dərəcəsi indikatorlar kompleksinin hər birinin bir-birinə mənfi təsir göstərmədən yolverilən həddə olması zamanı əldə olunur.

İqtisadi təhlükəsizliyin indikator sistemi olacaq təhdidlər haqqında öncədən siqnal verir və onun qarşısının alınması tədbirlərinə yönəldir. Buna gorə də bu məqsədlə iqtisadi təhlükəsizlik tələblərinə cavab verən əsas iqtisadi parametrləri və astana kəmiyyətləri siyahısı tutulmalıdır. Bu siyahı çox da böyük olmamalıdır. Dövlətin iqtisadi təhlükəsizliyi astana kəmiyyətləri siyahısı iqtisadi sistemin monitorinqi zamanı göstəricilər siyahısından daha tutarlı olmalıdır. Digər tərəfdən bu siyahı ölkə iqtisadiyyatının əsas sferalarını əhatə etməli və onun iqtisadi təhlükəsizliyinin ciddi təhdidlərini göstərməlidir.

## 4. Azərbaycan iqtisadiyyatının təhlükəsizlik indikatorlarının dinamikası

Aydındır ki, dövlətin iqtisadi təhlükəsizlik indikatorlarının astana kəmiyyətləri iqtisadi vəziyyətdən asılı olaraq müəyyən edilməlidir. İqtisadi təhlükəsizlik məsələləri ilə məşğul olan iqtisadçılar tərəfindən milli iqtisadiyyatın inkişafının təhlükəsizlik sərhəddini müəyyən edən astana kəmiyyətləri sistemindən geniş istifadə olunur.

Aşağıdakı cədvəldə 1995-2010-cu illərdə Azərbaycan iqtisadiyyatının sabit artım qabiliyyəti üzrə təhlükəsizlik indikatorlarının dinamikası verilmişdir:

**Cədvəl 1. 1995-2010-cu illərdə Azərbaycan iqtisadiyyatının sabit artım qabiliyyəti üzrə təhlükəsizlik indikatorlarının dinamikası**

| *İqtisadi təhlükəsizliyin astana kəmiyyətlərinin respublika üzrə faktiki indikatorların səviyyəsi* | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **İllər** | **ÜDM** | **O cümlədən adam başına** | **ÜDM-in indeks deflyatoru** | **İstehlak qiymətləri indeksi** | **Əhaliyə göstərilən pullu xidmətlərin həcminin ÜDM-də payı** | **Pərakəndə əmtəə dövriyyəsi həcminin ÜDM-də payı** | **Sənaye məhsulunun həcmi** | **Sənaye məhsulunun artımı** | **Sənaye əlavə dəyərin ÜDM-də payı** | **Kənd təsərrüfatı əlavə dəyərin ÜDM-də xüsusi çəkisi** |
| | *Mln.man* | *man* | *%* | *%* | *%* | *%* | *Mln. man* | *%* | *%* | *%* |
| ***1995*** | 2133,8 | 282,1 | 645,8 | 184,5 | 7,8 | 49,6 | 1771,1 | 78,6 | 27,3 | 25,3 |
| ***2000*** | 4718,1 | 593,2 | 112,5 | 102,2 | 10,1 | 44,9 | 3638,5 | 106,9 | 36,1 | 15,9 |
| ***2001*** | 5315,6 | 661,7 | 102,5 | 101,5 | 9,3 | 44,7 | 3769 | 105,1 | 37,6 | 14,7 |
| ***2002*** | 6062,5 | 747,5 | 103,1 | 102,5 | 9 | 45,4 | 4019,5 | 103,6 | 37,4 | 13,8 |
| ***2003*** | 7146,5 | 872,7 | 106 | 102,2 | 8,4 | 42,5 | 4982,1 | 106,1 | 37,2 | 12,3 |
| ***2004*** | 8530,2 | 1030,4 | 108,4 | 106,7 | 8,3 | 44,5 | 5961,4 | 105,7 | 38,3 | 10,8 |
| ***2005*** | 12522,5 | 1494,3 | 116,1 | 109,8 | 7,7 | 36,9 | 9309 | 133,5 | 49,4 | 8,6 |
| ***2006*** | 18746,2 | 2208,2 | 111,3 | 108,3 | 7,5 | 30,7 | 15544 | 136,6 | 57,3 | 6,7 |
| ***2007*** | 28360,5 | 3296,6 | 121 | 116,7 | 8,2 | 26,8 | 22496 | 124 | 59,5 | 6,4 |
| ***2008*** | 40137,2 | 4603,7 | 127,8 | 120,8 | 8,5 | 27,1 | 29773 | 106,8 | 58,5 | 5,3 |
| ***2009*** | 34578,7 | 3917,3 | 78,8 | 101,5 | 11,8 | 34,2 | 22564 | 108,6 | 49,1 | 6,4 |
| ***2010*** | 41574,7 | 4653,3 | 120,3 | 105,7 | 11,3 | 32,9 | 27453,4 | 121,7 | 52,6 | 5,4 |

*Mənbə: www.azstat.org*

Cədvəl 1-in məlumatlarından göründüyü kimi, təhlil olunan dövrdə ÜDM-in artımı məhsul istehsalının demək olar ki, bütün sahələr üzrə genişlənməsi hesabına təmin olunmuşdur ki, bu da iqtisadiyyatın sahəvi diversifikasiyası prosesini daha da sürətləndirmişdir.

1995-ci ildən etibarən sənaye məhsullarının artım tempi təmin olunmuş və bu sahədə yaranan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 2008-ci ildə 2 dəfədən çox artmış, 2010-cu ildə isə bir qədər səngimişdir. Belə ki, 2010-cu ildə 1995-ci illə müqa-

yisədə sənaye məhsulunun həcmi 15,5 dəfə, 2000-ci ilə nisbətən 7,6 dəfə, 2005-ci ilə nisbətən 3 dəfə artmışdr. ÜDM-də ümumi sənayedə yaranmş əlavə dəyərin payı müvafiq olaraq 1995-ci ildəki 27,3-dən 2010-cu ildə isə 52,6 %-ə qədər yüksəlmişdir. Eyni zamanda ümumi sənaye məhsulunda hasilat sənayesi, xüsusilə də yanacaq-energetika sənayesi önəmli yer tutmaqda davam edir. Belə ki, hazırda ümumi sənaye məhsulunun təxminən 79,8%-i yanacaq-energetika kompleksində istehsal olunur.

Ölkənin emal sənayesi ümumi sənaye məhsulunun həcmində yalnız 25,7%-ə qədərlə təmsil olunur ki, bu da iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətinin səviyyəsindən xeyli (*70%*) aşağıdır. Bununla yanaşı, maşınqayırma və metal emalı sənayesinin ümumi sənaye məhsulunda xüsusi çəkisi 2000-ci ildə 3,7 %-dən, 2005-ci ildə 2,85%-ə qədər aşağı düşmüş və 2010-cu ildə 2,7%-ə qədər enmişdir ki, bu göstəriciyə görə respublikamız iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətindən (*25%*) çox geri qalır. Lakin bu o qədər də təhlükəli deyil. Çünki azalma mütləq deyil, yanacaq-energetika sənayesinin ümumi sənaye məhsulunda xüsusi çəkisinin 1999-cu ildə 47%-dən 2005-ci ildə 66,5% və 2010-cu ildə 79,8% qədər yüksəlməsi fonunda nisbi azalmışdır. Halbuki bu sahədə artım faizlə deyil dəfələrlə ölçülür.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatı məhsullarının həcmi 2010-cu ildə 1995-ci ilə nisbətən 5,4 dəfə, 2000-ci ilə nisbətən 3,7 dəfə, 2005-ci ilə nisbətən isə 2,2 dəfə artmasına baxmayaraq, bu sahədə yaranan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi getdikcə azalmaqda davam edir. Belə ki, əgər bu göstərici 1995-ci ildə 25,3%, 2000-ci ildə 15,9% təşkil edirdisə, 2005-ci ildə 8,6%-ə, 2010-cu ildə isə 5,4%-ə enmişdir. Bu azalma da yuxarıda qeyd olunan maşınqayırma və metal emalı sənayesinin ümumi sənaye məhsulunda xüsusi çəkisinin azalma səbəbindən baş vermişdi və mütləq deyil nisbi azalmadır.

Təhlil olunan dövrdə ÜDM-də sənaye və kənd təsərrüfatının xüsusi çəkilərinin aşağı düşməsi ilə eyni vaxtda, tikinti, xidmət və nəqliyyat – rabitənin ÜDM-də payları artmağa doğru meyil etmişdir. Son illər tikinti sahəsində baş verən yüksək artım onun ÜDM-in strukturunda payının 2000-ci ildə 6,5%-dən 2002-ci ildə 8,7%-ə, 2003-cü ildə 11,2%-ə, 2004-cü ildə 12,5%-ə qədər yüksəlməsinə səbəb olmuş, yalnız 2005-2008-ci illər arası xeyli azalaraq, 2008-ci ildə 7,0%-ə enmişdir. 2010-cu ildə isə 7,% olmuşdur.

Eyni zamanda, ÜDM-in artımında əhəmiyyətli iştirak payı olan nəqliyyat sektorunda təhlil olunan dövrdə orta artım tempi 3,7% təşkil etmişdir. Nəqliyyat sektorunda baş verən artımda 1996-cı ildən başlayaraq ölkədən keçən tranzit yük daşımalarının getdikcə intensivləşməsi mühüm əhəmiyyət kəsb edir. 2010-cu ildə nəqliyyat sektorun ÜDM-in strukturunda payı 7,9% olmuşdur.

İndi isə ölkənin sosial-iqtisadi inkişafının əsas göstəricilərinin iqtisadi təhlükəsizliyin müvafiq astana kəmiyyətləri ilə müqayisəsini aşağıda tərtib etdiyimiz cədvəlin məlumatları əsasında aparmağa çalışaq:

## Cədvəl 2. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı üzrə faktiki indikatorlarının iqtisadi təhlükəsizliyin astana kəmiyyətləri ilə müqayisəsi

| İqtisadi təhlükəsizliyin astana kəmiyyətləri | | Taxıl yığımı *(min tonla)* | Büdcə kəsiri *(ÜDM-ə nisbətən %-lə)* | İnflyasiya səviyyəsi *(%-lə)* | Qızıl-valyuta resurslarının həcmi *(mln. dollarla)**** | | Müdafiə xərcləri *(ÜDM-ə %-lə)* | Mülki elmə xərclərin ÜDM-də payı *(%-lə)* | İnnovasiya məhsullarının payı *(bütün sənaye məhsulların a %-lə)* | Maşınqayırma və metal emalının sənaye istehsalında payı *(%-lə)* | İşsizlik səviyyəsi *(rəsmi statuslular)* | Gəlirlərin səviyyəsi yaşayış minimumundan aşağı olan əhalinin payı *(bütün əhaliyə görə %-lə)* | Pulla təminatın səviyyəsi *(ilin sonuna M2-nin ÜDM-ə %-lə nisbəti)* | Xarici borc *(ÜDM-ə %-lə)* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | ***Mərkəzi Bank*** | ***Dövlət*** | | | | | | | | |
| İqtisadi təhlükəsizliyin astana kəmiyyətlərinin səviyyəsi | Rusiya üçün hesablanmış* | 70000 | 3 | 125 | Müvafiq dövrün idxalının 25%-i | | 3 | 1,5 | 15 | 25 | 5-8 | 7-9 | 50 | 30 |
| | Cənubi Qafqaz dövlətləri üçün** | 4000 | 5 | 106-110 | | - | - | 3 | - | 20 | 10 | 9 | 30 | 25 |
| Faktiki indikatorların ölkə üzrə səviyyəsi | 1995 | 921,5 | 5,2 | 511,8 | 37,5 | - | 1,9 | 0,2 | - | 4,7 | 0,8 | 61,5 | 9 | 12,2 |
| | 2000 | 1540,2 | 1 | 101,8 | 59 | - | 1,6 | 0,2 | 0,03 | 3,7 | 1,2 | 49 | 7 | 25,6 |
| | 2002 | 2195,9 | 0,4 | 102,8 | 40,9 | - | 1,6 | 0,18 | 0,02 | 4,9 | 1,3 | 46,7 | 6,7 | 24,8 |
| | 2003 | 2057,1 | 0,2 | 102,2 | 28,8 | 61,7 | 1,8 | 0,23 | 0,01 | 6,7 | 1,3 | 44,7 | 7,3 | 23 |
| | 2004 | 2158,7 | 0,1 | 106,7 | 28,5 | 58,6 | 2,4 | 0,23 | 0,09 | 6,2 | 1,3 | 40,2 | 8 | 16,6 |
| | 2005 | 2126,7 | 0,7 | 109,6 | 47,5 | 56,9 | 3,2 | 0,18 | 1 | 2,85 | 1,4 | 29,3 | 6,4 | 12,7 |
| | 2006 | 2078,9 | 0,4 | 108,3 | 55,7 | 82,9 | 3,2 | 0,17 | 1,2 | 1,18 | 1,3 | 20,8 | 11,9 | 9,9 |
| | 2007 | 2004,4 | 0,3 | 116,7 | 70,3 | 129,2 | 2,9 | 0,15 | 0,04 | 1,48 | 1,2 | 15,8 | 15,5 | 8,2 |
| | 2008 | 2498,3 | 0,03 | 120,8 | 85,6 | 258,9 | 2,7 | 0,16 | 0,2 | 1,23 | 1 | 13,2 | 15,1 | 8,7 |
| | 2009 | 2988,3 | 0,5 | 101,5 | 83,2 | 359,1 | 2,7 | 0,18 | 0,35 | 1,37 | 1 | 10,9 | 17,8 | 8,9 |
| | 2010 | 1831,3 | 0,9 | 105,7 | 83,1 | 440,9 | 2,9 | 0,2 | 0,38 | 2,7 | 1 | 9,1 | 19,9 | 7,5 |

*Mənbə: Cədvəl məlumatları Azərbaycan Respublikasının müvafiq mərkəzi icra orqanlarının veb saytlarının və habelə xarici ölkə iqtisadi ədəbiyyatlarının metodoloji təqdimatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 2-nin məlumatlarından göründüyü kimi, ölkədə taxıl yığımı 2009-cu ildə 1995, 2000-ci və 2005-ci illərə nisbətən müvafiq olaraq 3,2, 1,9 və 1,4 dəfə artmasına baxmayaraq, bu göstəriciyə görə (*ildə 2988 min ton*) təhlükəsizliyin müvafiq astana kəmiyyətindən (*ildə 4000 min ton*) 1,3 dəfə geri qalırdı. 2010-cu ildə 2009-2010-cu illərin təbii-iqlim şəraitinin əlverişsiz olması taxıl yığımının 1831,3 min tona qədər enməsinə səbəb olmuşdur:

Hesablamalar göstərir ki, 1995-2010-cu illərdə iqtisadiyyatın pulla təminatı səviyyəsi (*M2-nin ÜDM-ə nisbəti*) 9-19,9% civarında tərəddüd etmişdir ki, bu da iqtisadi təhlükəsizliyin qəbul edilmiş astana kəmiyyətindən (*30 %*) xeyli aşağıdır.

Dünya təcrübəsinə görə, strateji məqsəd saxlanılmaqla tənzimlənən inflyasiyanı təmin etmək üçün büdcə kəsirinin 5 faizə qədər artırılması məqsədəuyğun hesab edilir. 1991-1995-ci illərdə Azərbaycanda büdcə kəsiri 3-5,2% civarında dəyişsə də, 2000-ci ildən 2005-ci ilə qədər bu göstərici 1,0-0,7% arasında tərəddüd etmişdir. 2005-2010-cu illər arasında büdcə kəsiri 0,7-0,9% civarında dəyişmişdir:

**Qrafik 1. Azərbaycanda ümumi taxıl yığımı** *(mln. man)* **və Cənubi Qafqaz dövlətləri üçün iqtisadi təhlükəsizliyin astana kəmiyyətinin səviyyəsi**




*Mənbə: www.azstat.org, Проблемы современной экономики. Евроазиатский международный научно-аналитический журнал. № ¾ (15/16), 2005.*

**Qrafik 2. Azərbaycanda pulla təminatın səviyyəsi** *(ilin sonuna M2-nin ÜDM-ə %-lə nisbəti)* **və Cənubi Qafqaz dövlətləri üçün iqtisadi təhlükəsizliyin astana kəmiyyətinin səviyyəsi**




*Mənbə: www.azstat.org, Проблемы современной экономики. Евроазиатский международный научно-аналитический журнал. № ¾ (15/16), 2005.*

Artıq ölkədə büdcə kəsiri özəlləşdirmədən, dövlət istiqraz vərəqələrinin satışından daxil olan vəsaitlər və beynəlxalq maliyyə təşkilatlarından cəlb edilən vəsaitlər hesabına maliyyələşdirilir. Odur ki, fikrimizcə, hazırda keçid iqtisadiyyatlı ölkələrdə, o cümlədən keçid iqtisadiyyatını başa vurmuş Azərbaycanda büdcə kəsirinin qeyd

**Qrafik 3. Azərbaycanda büdcə kəsiri (ÜDM-ə nisbətən %-lə) və Cənubi Qafqaz dövlətləri üçün iqtisadi təhlükəsizliyin astana kəmiyyətinin səviyyəsi**




*Mənbə: www.azstat.org, Проблемы современной экономики. Евроазиатский международный научно-аналитический журнал. № ¾ (15/16), 2005.*

edilən amillər hesabına ÜDM-in 3-5%-i həcmində planlaşdırılmasını optimal hesab etmək olar.

Cədvəl 3-ün məlumatlarına əsasən, Azərbaycan iqtisadiyyatının təhlükəsizlik indikatorlarının dinamikası haqda onu söyləmək olar ki, taxıl yığımı, büdcə kəsirinin ÜDM-ə nisbəti, inflyasiya səviyyəsi, mülki elmə xərclərin ÜDM-də payı tədiqat illərində cüzi artmış və ya sabit qalmışdır.

Belə dinamikanın səbəbi təbii amillərlə və neft amilinin təsirinin olmaması ilə əlaqədardır. Qızıl-valyuta resurslarının həcminin, Mərkəzi Bankın qızıl-valyuta resurslarının həcminin 2000-2006-ci illərdə azalması bu dövrlərdə neft gəlirlərinin nisbətən az olması, iqtisadi yüksəlişin ilk addımlarının atılması ilə və sonrakı dövrlərdə sürətlə artması, əsrin müqaviləsinin tam şəkildə fəaliyyətdə olması ilə bağlıdır. Müdafiə xərclərinin ÜDM-də payının, innovasiya məhsullarını bütün sənaye məhsullarında payının artması da iqtisadi inkişafın nəticəsidir. Maşınqayırma və metal emalının sənaye istehsalında payı sənayenin sürətli inkişafı qarşısında ancaq nisbi azalmışdır.

İşsizlik səviyyəsinin, gəlirlərin səviyyəsi yaşayış minimumundan aşağı olan əhalinin payının azalması yeni iş yerlərinin açılması və sosial yönümlü əsaslı iqtisadi tədbirlərin nəticəsidir. Pulla təminatın səviyyəsində tədqiq ilindəki artım Mərkəzi Bankın sərt pul-kredit siyasətilə bağlıdır.

**Cədvəl 3. Azərbaycan iqtisadiyyatının təhlükəsizlik indikatorlarının dinamikası**

| | **Taxıl yığımı** *(min tonla)* | **Büdcə kəsiri** *(ÜDM-ə nisbətən %-lə)* | **İnflyasiya səviyyəsi** *(%-lə )* | **Qızıl-valyuta resurslarının həcmi** *(mln. dollarla)*** **Mərkəzi Bank** | **Qızıl-valyuta resurslarının həcmi** *(mln. dollarla)*** **Dövlət** | **Müdafiə xərcləri** *(ÜDM-ə%-lə)* | **Mülki elmə xərclərin ÜDM-də payı** *(%-lə)* | **İnnovasiya məhsullarının payı** *(bütün sənaye məhsullarına %-lə)* | **Maşınqayırma və metal emalının sənaye istehsalında payı** *(%-lə)* | **İşsizlik səviyyəsi** *(rəsmi statuslular)* | **Gəlirlərin səviyyəsi yaşayış minimumundan aşağı olan əhalinin payı** *(bütün əhaliyə görə %-lə)* | **Pulla təminatın səviyyəsi (ilin sonuna M2-nin ÜDM-ə %-lə nisbəti** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ***2000*** | 100 | 100 | 100 | 100 | - | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| ***2002*** | 142,6 | 40 | 101 | 69,32 | - | 100 | 90 | 66,67 | 132,4 | 108,3 | 95,31 | 95,71 |
| ***2003*** | 133,6 | 20 | 100,3 | 48,81 | 100 | 112,5 | 115 | 33,33 | 181,1 | 108,3 | 91,22 | 104,3 |
| ***2004*** | 140,2 | 10 | 104,8 | 48,31 | 94,98 | 150 | 115 | 300 | 167,6 | 108,3 | 82,04 | 114,3 |
| ***2005*** | 138,1 | 70 | 107,7 | 80,51 | 92,22 | 200 | 90 | 3333 | 77,03 | 116,7 | 59,8 | 91,52 |
| ***2006*** | 135 | 40 | 106,4 | 94,41 | 134,4 | 200 | 85 | 4000 | 31,89 | 108,3 | 42,45 | 170 |
| ***2007*** | 130,1 | 30 | 114,6 | 119,2 | 209,4 | 181,3 | 75 | 133,3 | 40 | 100 | 32,24 | 221,5 |
| ***2008*** | 162,2 | 3 | 118,7 | 145,1 | 419,6 | 168,8 | 80 | 666,7 | 33,24 | 83,33 | 26,94 | 215,7 |
| ***2009*** | 194 | 50 | 99,71 | 141 | 582 | 168,8 | 90 | 1167 | 37,03 | 83,33 | 22,24 | 254,3 |
| ***2010*** | 118,9 | 90 | 103,8 | 140,8 | 714,6 | 181,3 | 100 | 1267 | 72,97 | 83,33 | 18,57 | 284,3 |

*Mənbə: www.azstat.org, www.economy.gov.az.*

## 5. Nəticə

Azərbaycanın iqtisadi inkişafında davamlı iqtisadi təhlükəsizliyin təmin olunması üçün aşağıdakı istiqamətlərdə tədbirlərin görülməsi vacibdir:

- ⇨ ÜDM-in və o cümlədən adam başına düşən payın artırılmasının daha da sürətləndirilməsi;
- ⇨ antinflyasiya tədbirlərinin gücləndirilməsi;
- ⇨ borcların azaldılması;
- ⇨ pul kütləsinin optimal səviyyədə saxlanılması;
- ⇨ xarici valyutanın milli valyutaya optimal nisbətinin daim təmin edilməsi;
- ⇨ investisiyanın səmərəlliyinin artırılması;
- ⇨ minimum istehlak səbətinin mütəmadi artırılması;
- ⇨ sahələr üzrə əmək haqqı və əmək məhsuldarlığında olan fərqin azaldılması;
- ⇨ emal sənaye sahələrinin inkişafı;
- ⇨ ixracda qeyri-ənənəvi xammal və hazır məhsulun xüsusi çəkisinin artırılması;
- ⇨ idxalın daxili istehlakda payının azaldılması və strukturunda istehsal təyinatlı maşın və avadanlıqların payının artırılması;

- Qeyri-resurs sahələrin inkişafı;
- səhiyyəyə büdcə vəsaitinin və tibbi sığorta məsələlərinə diqqətin artırılması;
- təhsilin davamlı modernləşdirilməsi və elmi-tədqiqat işlərinin genişləndirilməsi;

## İstifadə olunmuş ədəbiyyat:

1. Бенедиктов М.Е., Хрусталев. Экономическая безопасность наукоемких производств // Вопросы экономики. 1999, №9, с. 119-125.
2. Сенчагов В. Экономическая безопасность как основа обеспечения национальной безопасности России // Вопросы экономики 2000, №8, с. 64-79.
3. Афонцев С. Национальная экономическая безопасность: на пути к теоретическому консенсусу. // Мировая экономика и международные отношения 2002, №10, с. 30-39.
4. Илларионов А. Критерии экономической безопасности. // Вопросы экономики. 1998, №10. с. 35-57.
5. Глазьев С. Основа обеспечения экономической безопасности страны // Российский экономический журнал. 1997, №1. с 3-19.
6. Румянцева Е.Е. Новая экономическая энциклопедия. М.: ИНФРА-М, 2006, 810 с.
7. Тамбовцев В.Л. Экономическая безопасность хозяйственных систем: структура проблемы // Вестник Московского университета. Серия 6. Экономика. 1995, № 3. с 3-9.
8. Экономическая безопасность хозяйственных систем / Под общей ред. А.В. Колосова. М.: Изд-во РАГС. 2001, 531 с.
9. Экономическая и национальная безопасность: Учебник / Под ред. Е.А. Олейникова. М.: Издательство “Экзамен”, 2004, 768 с.
10. Проблемы современной экономики. Евроазиатский международный научно-аналитический журнал. № ¾ (15/16), 2005.
11. www.azstat.org. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.
12. www.economy.gov.az. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi.

**Гумбатова Сугра Ингилаб кызы**
диссертант Азербайджанского Государственного Экономического Университета

## Вопросы обеспечения экономической безопасности в устойчивом экономической развитии Азербайджана

### Аннотация

*Цель исследования* - сравнительный анализ динамики индикаторов безопасности стабильного роста национальной экономики и фактических индикаторов социально-экономического развития с пороговыми значениями экономической безопасности в целях обеспечения экономической безопасности и защиты внутреннего рынка.

*Методология исследования* – статистическое группирование, системный подход, сравнительный анализ.

*Результаты исследования* – обеспечение экономической безопасности при устойчивом экономическом развитии, ускорение мер по развитию, охватывающих научно-обоснованную макроэкономическую стабилизацию, финансовые, ценовые и нересурсные сферы, уровень жизни населения и здравоохранение, науку и образование, промышленность и строительство, внешнеэкономическую деятельность. Главной целью обеспечения экономической безопасности является повышение эффективности и совершенствование механизма защиты внутреннего рынка.

*Ограничения исследования* – необходимость в расширенных исследованиях с точки зрения изучения угроз для экономической безопасности и существующих проблем в области экономической безопасности.

*Практическая значимость исследования* - обеспечение экономической безопасности, повышение эффективности и совершенствование механизма защиты внутреннего рынка.

*Оригинальность и научная новизна исследования* – научно-обоснованный сравнительный анализ динамики индикаторов безопасности стабильного роста национальной экономики и фактических индикаторов социально-экономического развития с пороговыми значениями экономической безопасности в целях обеспечения экономической безопасности, повышения эффективности и совершенствование механизма защиты внутреннего рынка.

**Ключевые слова:** *экономика Азербайджана, экономическая безопасность, критерии безопасности, границы безопасности, пороговые значения.*

**Gumbatova Sugra Ingilab qizi**
Ph.d-student in economics, Azerbaijan State Economic University

## Questions of maintenance of economic safety in steady economic development of Azerbaijan

### Abstract

*Purpose* - is a comparative research of dynamics of indicators on constant ability of growth of economy of Azerbaijan and actual indicators on social and economic development with threshold values of economic safety in maintenance of economic safety of the country and protection of home market.

*Design/methodology* is a grouping of the data, the system approach, and the comparative analysis.

*Findings* - is an accelerations of scientifically well-founded measures of development covering macroeconomic stability, the finance and the prices, a population's standard of living and public health services, the industry and buildings, education and science, Foreign trade activities, not-resource branches with a view of maintenance of economic safety, increase and perfection of efficiency of the mechanism of protection of home market in steady economic development.

*Research limitations* is a requirement of more profound researches of threat of economic safety, consideration of existing problems in the field of criteria of economic safety.

*Practical implications* are the maintenance of economic safety, increasing and perfection of efficiency of the mechanism of protection of home market.

*Originality/value* is a carrying out of scientifically well-founded comparative research of dynamics of indicators on constant ability of growth of economy of Azerbaijan and actual indicators on social and economic development with threshold values of economic safety from a position of maintenance of economic safety and increase and perfection of efficiency of the mechanism of protection of home market.

**Keywords:** *Economy of Azerbaijan, economic safety, criteria of safety, limits of safety, threshold values.*

**JEL Classification Codes:** E01, H56, O11, P24

Məqalə redaksiyaya daxil olmuşdur: 02.02.2012.
Təkrar işləməyə göndərilmişdir: 12.02.2012.
Çapa qəbul olunmuşdur: 24.02.2012.